

**Fəzail İsmayıl Böyükkişi**

*Bütöv Azərbaycan Ocaqları (BAO) Abbas Lisaninin hüquqlarının Müdafiə Komitəsinin sədri*

*Xoşbəxtəm ki,”Ömür dastanım”ı “Tariximizin Bütöv Azərbaycan mərhələsi” dövründə, yəni 65-yaşımın tamam olduğu ərəfədə qələmə alıram. Söz yox ki, bir qələm sahibi kimi bu ömrü mən yaşadığıma görə bu dastanı da məndən qeyri kimsə belə gözəl yaza bilməz.*

*Müəllif*

# Ömür dastanım

(əvvəli ötən sayımızda)

Başqa bir şeirimdəsə əqidə dostlarımı yenilməz və mübariz olmağa belə səsləyirdim:

**Həyat ilə üz-üzə dur,**
**Diz-dizə dur,**
**Qur-yarat,**
**Mübarizlər məskənidir bu həyat.**
**Mübarizə coşqun dəniz,**
**Dəli-dolu dağ çayıdır.**
**Haqqı sevən könüllərin -**
**Nur qaynağı, nur çeşməsi,**
**Haqqı sevən ürəklərin -**
**Pıçıltısı, harayıdır...**
**Mən özümdə əziz dostlar,**
**Sizin kimi dağ çayıyam,**
**Burulğanda burula-burula,**
**Axaram durula-durula...**

Bu şeirlərimdə mənim də taleyim dediyim kimi oldu. Belə ki, haqq uğrunda apardığım mübarizəm öz gözəl nəticələrini verməyə başladı, həm dünyaya anam adda qızım gəldi. Onun dünyaya gəlişi uğurlu oldu. Əvvəlcə böyük oğlum universitetin tarix fakultəsinə qəbul oldu, sonra mən Tibb universitetində elmi fəaliyyətə başladım, həmin dövürdə kiçik oğlum da İqtisad universitetinə qəbul oldu. Qızım birinci sinifə gedəndə həm müəllimim, həm də millət vəkili olan professor İbrahim İsayevin (Allah rəhmət eləsin!) köməyi ilə Lökbatanda ev tikdirmək üçün torpaq sahəsi ala bildim. O vaxt bir çox dostlarımın köməyi ilə (bu dostlarımın içərisində o vaxt “Respublika” qəzetinin baş redaktoru olan rəhmətlik professor Teymur Əhmədov və onun rəhmətlik oğlu tələbəlik illərindən dostum alim-cərrah Fərhad Əhmədov da vardı) həmin torpaq sahəsində özümə ev tiktirə bildim. Çətinliklərim nisbətən azalsa da yenə də mübariz ruhda şeirlər yaza-yaza onları qəzetlərdə dərc etdirdim və yeni kitablar da çıxartdırdım (təəsüf ki, indiyə qədər yazdığım publisist və elmi məqalələrimə, nəşr etdirdiyim kitablarıma görə dövlət tərəfindən heç bir yardım almamışam, əksinə gördüyüm bu xeyirxah əməllər müqabilində bu işlərə baxan dövlət məmurlarından yalnız biganəlik, pis sifət və yamanlıq görmüşəm). Bu kitablarıma vaxtiylə nəşr etdirilməsi mümkün olmayan şeirlərimi də saldırdım (eləində də çap etdirilməsi mümkün olmayan çoxlu şeirlərim var. Bu şeirlərdən ikisinin adı “Mübarək olsun”dur, hər iki şeirimi satirik ruhda qələmə almışam, həmin şeirlərim aşiq şeirinin gəraylı janrındadır. İndi həmin gəraylılardan hərəsindən bir bənd diqqətinizə çatdırım ki, həm biləsiniz bu gəraylıları kimə həsr etmişəm, həm də bu bəndləri oxuyanda könlünüz şad olsun. 2003-cü ildə qələmə aldığım birinci gəraylımda “qəhrəman”ımı belə tərifləyirəm:

**...Üzü çamır, içi mizdi,**
**Ūfunətdi, astar-üzdü,**
**Pırpız qaşdı, bayquş gözdü,**
**Uğrunuz mübarək olsun...**

2020-ci ildə qələmə aldığım “Mübarək olsun” gəraylımdasa “Üzü çamır, içi mizdi, üfunətdi, astar-üzdü” toy eləyən həmin “qəhrəman”ımı belə tərifləyirəm:

**Ərşə qalxıb gecə yuxum,**
**Murdar çırtım, murdar toxum,**
**Boynunuzu yerə soxum,**
**Boyunuz mübarək olsun...**
**Toyunuz mübarək olsun...**



...Bəli, demək olar ki indiki həkimlər ondaki həkimlərdən daha savadsız, daha zırrama olduğundan indiki xəstələrin və onların sahiblərinin vəziyyəti daha ağır, daha acınacaqlıdır. Bu nəinki tibb elmi sahəsində demək olar ki, elmimizin bütün sahələrində də belədir. Bu haqda mən hələ 2008-ci ildə (unutmayaq ki, o vaxt təhsil naziri təhsildən az-çox başı çıxan Misir Mərdənov idi) qələmə aldığım “Elimizin və elmımızın yaman günləri” adlı silsilə məqalələrimdə ətraflı danışmışam. O silsilə məqalələrimdə dediyim kimi hərgah elmdən az-çox başı çıxan Misir Mərdanovun vaxtında elmimizin bərbad vəziyyətdə olduğunu demişdimsə, indi görün sonraki, elmdən başı çıxmayan, quşu gözdən vuran təhsil nazirlərinin vaxtında elimizin və elmimizin vəziyyəti necədir? Mənim aləmimdə indi elmimiz ya ölüb, ya da aqoniya (ölülüyü və diriliyi bilinməyən, yaxud da letal ölüm) vəziyyətindədir. Bütün bunları böyük Mirzə Ələkbər Sabirin anadan olmasının 160-illiyinə həsr etdiyim və onun “Neylərdin İlahi” şeirinə bəzətmə yazdığım “Neylərdin İlahi” şeirimdə qələmə alaraq elimizin və elmimizin yaman gündə olduğunu göstərmişəm. İndi həmin şeiri böyük ixtisarla diqqətinizə çatdırıram ki, elimizin və elmimizin halından azacıq da olsa tanış olasınız:

### Neylərdin, ilahi?

**Boş başlı insanları neylərdin İlahi?**
**Daş başlı insanları neylərdin İlahi?**

**Peysərləri kərən, qarınları da xaşal,**
**Xaş(ç)başlı insanları neylərdin İlahi?**

**Qanlı göz yaşları çağladıqca çağlayan,**
**Yaş başlı insanları neylərdin İlahi?**

**Hələ diri-diri məzarlaşan, daşlaşan,**
**Baş daşlı insanları neylərdin İlahi?**

**Alçaqlığa qurşanıb trilyonlar toplayan,**
**Daş-qaşlı insanları neylərdin İlahi?**

**Biyara işləyib quru çörək tapmayan,**
**İş başlı insanları neylərdin İlahi?**

**Kölgəsindən qorxub girməyə deşik gəzən,**
**Mış başlı insanları neylərdin İlahi?**

**Qafasında yel vurub yengələr oynayan,**
**Quş başlı insanları neylərdin İlahi?**

**Məzlumlara qənim, zalımlara qulbecə,**
**Püş başlı insanları neylərdin İlahi?**

**Səmə it tək dolanıb, hey irişən, mırışan,**
**Xoş başlı insanları neylərdin İlahi?**

**Ənsələri gəmrib, ilikləri də sümrən,**
**Leş başlı insanları neylərdin İlahi?**

**Kölələrin bədənləri var, başlarısa yox,**
**Heş başlı insanları neylərdin İlahi?**

**Heş baş bəlli, bəs saman altdan su yeridən,**
**Beş başlı insanları neylərdin İlahi?**

**Beş başlardan törər bij balalar nə qədər,**
**Bij başlı insanları neylərdin İlahi?**

**Bij bala Müaviyyələr: - Bikəs yetimlər,**
**Yüz qoşlu insanları neylərdin İlahi?**

**Nəcib siyasəti dəm qazıyla dəmləyən,**
**“Meyxoşlu” insanları neylərdin İlahi?**

**Onlar haqq-ədaləti hey xışlayıb, xıncımlar,**
**Xış başlı insanları neylərdin İlahi?**

**İti tamah dişləri bağırsaqlar kəsən,**
**Diş başlı insanları neylərdin İlahi?**

**Oynaşları buğa,aşnaları da pəri,**
**Göz-qaşlı insanları neylərdin İlahi?**

**Ayıların iyimiş olar tay-tuşları,**
**Tay-tuşlu insanları neylərdin İlahi?**

**Şeyxlər meyxanəsi, meyxanə peymanəsi,**
**Maş-maşlı insanları neylərdin İlahi?**

**Paşa Haşa başdı, Haşa Paşa lap başdı,**
**‘Baş-başlı” insanları neylərdin İlahi?**

**Qarın kürə, mədə kir-kirə cöngələr sinrər,**
**Aş başlı insanları neylərdin İlahi?**

**Mal-mülklərini Qarabağla villalaşdıran,**
**Xaş-xaşlı insanları neylərdin İlahi?**

**Vətən dəllalları tək dünyada faş olan,**
**Faş başlı insanları neylərdin İlahi?**

**Huşunu, guşunu göydələnlər cəmləyən,**
**Huş-başlı insanları neylərdin İlahi?**

**Abşeronun köksinə çarpaz dağlar basan,**
**Çaş-başlı insanları neylərdin İlahi?**

**Qızıl, nöyüt qazla, qaz vurub qazan dolduran,**
**Qaz başlı insanları neylərdin İlahi?**

**Sələmlə millətin kəlləsinə paz çalan,**
**Paz başlı insanları neylərdin İlahi?**

**Tar, saz sədasını qəti duyub-uymayan,**
**Caz başlı insanları neylərdin İlahi?**

**Zorramalıqla, zırramalıqla tuzlaşan,**
**Tuz başlı insanları neylərdin İlahi?**

**Hayklarla farslaşan, mayklarla da ruslaşan,**
**Rus başlı insanları neylərdin İlahi?**

Davamı var...